

# Azərbaycan şəhərlərinin açarları

# Keys of Azerbaijan towns

BAKI – 2020

Azərbaycan Milli Elmlər Akademiyası
Milli Azərbaycan Tarixi Muzeyi

Azerbaijan National Academy of Sciences
National Museum of History of Azerbaijan

**Milli Azərbaycan Tarixi Muzeyinin 100 illiyinə həsr olunur**

**Dedicated to the 100th anniversary of the National Museum of History of Azerbaijan**

Elmi redaktor:
*akademik Nailə Vəlixanlı*

Mətn:
*Sevinc Vahabova*

Foto:
*Gülnar Əliyeva*

Dizayn:
*Aynurə İsmayılova*

Tərcümə:
*İlkin Kəngərli*

Science editor:
*Academic Naila Vəlikhanli*

Text:
*Sevinj Vahabova*

Photos:
*Gulnar Aliyeva*

Design:
*Aynura İsmayilova*

Interpreter:
*İlkin Kangarli*

## *Azərbaycan şəhərlərinin açarları*

Milli Azərbaycan Tarixi Muzeyinin Silahlar və Bayraqlar fondunun çox zəngin, tarixi cəhətdən qiymətli və unikal kolleksiyası mövcuddur. Muzeyin yarandığı ilk gündən fəaliyyət göstərən bu fondun materialları içərisində təyinatına, quruluşuna və məzmununa görə müxtəlif dövrlərə və xalqlara məxsus silah növləri, bəzi Azərbaycan xanlıqlarının bayraqları, dövlətçilik rəmzləri, eləcə də bir sıra Azərbaycan şəhərlərinin açarları saxlanılır. Həmin açarların bir qismi Rusiyanın Cənubi Qafqaza yürüşləri zamanı çar ordusunun hərbi hissələri tərəfindən qənimət kimi götürülmüş, digər qismi dinc yolla alınmışdır. Bu qənimətlər sonradan 1888-ci ildə Tiflisdə açılan Qafqaz Hərbi Tarix Muzeyinə verilmişdi.

1924-cü ildə xüsusi dövlət sərəncamı ilə həmin Muzeydə saxlanılan Azərbaycana aid materiallar, o cümlədən xanlıqlara, çar ordusunda xidmət edən azərbaycanlı generallara və ayrı-ayrı müsəlman alaylarına məxsus bayraqlar, hakimiyyət rəmzləri, eləcə də Azərbaycanın şəhər və qalalarının açarları Azərbaycan Dövlət Muzeyinə (indiki Milli Azərbaycan Tarixi Muzeyinə) təhvil verilmişdir.

İnsana xidmət edən yüzlərlə məişət əşyaları arasında açar öz statusuna görə xüsusi yer tutur. Kiçik fiqurlu metal parçası olan açarın dəyəri, əhəmi-

## *Town Keys of Azerbaijan*

In the Armour and Flags Fund of the Azerbaijan National History Museum, there is rich, historically valuable and unique collection of various artefacts. Operating since the very first day of the Museum's establishment, the Fund houses weaponry from different ages and states, flags and state symbols of some of the Azerbaijani khanates, as well as the keys of several Azerbaijan towns. Back in XIX century, these keys had been captured as war trophies or taken as part of the peace treaties by the imperial Russian army during their conquest of the South Caucasus region. Later, all these keys were delivered to the Caucasus Military History Museum which was opened in Tbilisi in 1888.

In 1924, following the special governmental decree, those artefacts from the Caucasus Military History Museum which had relation with the history of Azerbaijan, were delivered to the Azerbaijan State Museum (former name of the Azerbaijan National History Museum). Among others, such artefacts included flags of different Azerbaijani generals and Muslim regiments – servants of the Imperial Russian Army, as well as symbols of Azerbaijani states and keys of the different towns and castles of Azerbaijan.

Keys take pride of place among hundreds of the household stuffs

yyəti onun daşıdığı funksiya baxımından önəmlidir. Açarın simvolik hakimiyyət gücu onun azadlıq nişanı kimi xüsusiyyətlərini xarakterizə edir. Şəhər-qalalarının açarları həmin dövrün ictimai-siyasi hadisələrini əks etdirir. Bu baxımdan təqdim olunan qala açarları Azərbaycanın orta əsrlər dövrünün, tarixi keçmişimizin əmanəti kimi əhəmiyyət kəsb edir.

Azərbaycan tarixən özünün təkrarsız təbiəti, çoxəsrlik tarixi, müxtəlif mədəniyyətləri özündə birləşdirən adət-ənənələri, zəngin şəhərləri ilə səyyahların və salnaməçilərin diqqətini çəkmişdir. Onlar öz əsərlərində bu ecazkar diyar, onun qədim şəhərləri haqqında maraqlı məlumatlar vermişlər. Bukletdə sadalanan açarlar orta əsr Azərbaycan şəhərlərində dövlətçilik tarixinin inkişafını əks etdirir.

Qədim Gəncə şəhəri tarixin müxtəlif mərhələlərində paytaxt statusunu saxlamış, Azərbaycanın qədim dövlətçilik və müstəqillik ənənələrinin qorunmasında mühüm əhəmiyyət kəsb etmiş, X əsrdə



***Gəncə şəhərinin açarı***

***Key of Ganja town***

used by the mankind. Value and importance of these actually small pieces of metal are explained by a function they serve. Historically, keys symbolized power and independence. Keys from the walled cities can narrate a lot about socio-political processes of the ages that they symbolize. From the given viewpoint, keys of the country's fortresses present valuable heritage of the medieval history of Azerbaijan.

Unique nature and ancient history of Azerbaijan, along with the fact that historically it had been a melting pot of the different cultures, had always attracted attention of different travellers and chroniclers, who eventually wrote a lot of interesting information on the country and its' ancient cities. Keys that are described in the booklet characterize history of the medieval cities of Azerbaijan.

In different times in the history, ancient Ganja had benefited from the capital status and played important role in preserving statehood and state independence of Azerbai-

Arranın və Şəddadilərin paytaxtı, XI əsrdə Səlcuq, XII-XIII əsrlərdə Azərbaycan Atabəyləri dövlətinin əsas şəhərlərindən olmuşdur.

XVIII əsrin ortalarında Nadir şahın ölümündən sonra Azərbaycan ərazisində yaranan dövlət qurumlarından biri də paytaxtı Gəncə şəhəri olan Gəncə xanlığı idi. Bu xanlığa Murovdağ silsiləsindən Kür çayınadək olan torpaqlar, Qarabağ və İrəvan xanlıqları, Qazax və Şəmşəddil sultanlıqları və Gürcüstan ərazisi sərhəd idi.

Gəncənin xüsusilə əlverişli mövqedə yerləşdiyini nəzərə alan Rusiya həmin ərazini ordunun dayağı kimi istifadə edərək, Azərbaycanın digər xanlıqlarını da işğal etmək üçün ilkin olaraq bu ərazini seçmişdir.

Həmin dövrdə Rusiyanın Qafqazdakı baş komandanı general P.D.Sisianov Gəncə xanı Cavad xana bir neçə dəfə təslim olmağı təklif etsə də, hər dəfə rədd cavabı alırdı. 1803-cü il noyabrın 20-də Tiflis istiqamətindən Gəncəyə doğru hərəkətə başlayan rus ordusu dekabr ayında Gəncə qalasına yetişdi. 3 yanvar 1804-cü ildə ağır döyüşdən sonra qala alındı. Bu döyüşdə Gəncə xanı Cavad xan Ziyadoğlu və oğlu qəhrəmancasına həlak oldular.

Rusiyanın işğalından sonra Gəncə xanlığı ləğv olundu və adı rus çarı Aleksanrdın arvadı Yelizavetanın şərəfinə dəyişdirilərək Yelizavetpol qoyuldu. Xanlığın yerində Yelizavetpol dairəsi yaradıldı.

jan. For example, it was a capital of Arran and Shaddadid states in X, one of the main cities of Seljuk empire in XI and Azerbaijan Atabey state in XII-XIII centuries A.D.

In the middle XVIII century, the city became a capital of Ganja khanate established in Azerbaijan together with other small states after Nadir shah's death. Covering territories between Murovdagh range and Kur, the khanate had shared borders with Garabagh and Iravan khanates, Gazakh and Shamsaddil sultanates, and Georgia.

Due to advantageous geographic location of Ganja, Russia had chosen it as a strategic lodgement for invading all Azerbaijan khanates, and therefore the city became the first Azerbaijani khanate to be conquered by Russians back in the outset of the XIX century.

By that time, Javadkhan - the ruler of Ganja khanate, had been repeatedly approached by P.D. Tsitsianov – Russian Commander-in-Chief in the Caucasus region, with an offer to surrender to the Russian Imperial Army. All those offers were rejected, and on November 20, 1803, Russian troops had been dispatched from Tiflis and sent to Ganja, reaching its' walls in December. The fortress fell on January 3, 1804, after a heavy combat between Russian and khanate armies. Both Javadkhan and his son died a hero's death in that remarkable battle.

After being conquered by the Russian Empire, Ganja khanate had been disintegrated and the city was renamed as Yelizavetpol, as a trib-



*Bakı şəhərinin açarı*
*Key of Baku town*

XVIII əsrin birinci yarısında Azərbaycanda yaranmış bir sıra müstəqil xanlıqlardan biri də mərkəzi Bakı şəhəri olan Bakı xanlığı idi. Bakı hələ qədim zamanlardan Yaxın Şərq, Orta Asiya və digər qonşu ölkələrlə həm dəniz, həm də karvan yolu vasitəsilə iqtisadi, mədəni və ticarət əlaqələri saxlamışdır. Möhkəm qala divarları ilə əhatə olunmuş Bakı orta əsrlərdə Azərbaycanın ən alınmaz şəhərlərindən biri idi. Qala darvazalarının müdafiəsi və şəhərin asayişinin qorunması üçün qalabəyi cavabdeh idi. Qalabəyinin xüsusi təşkil olunmuş silahlı dəstəsi fəaliyyət göstərirdi. Şəhər əhalisi qalanın təhlükəsizliyinin təmin olunması üçün xəzinəyə vergi ödəyirdi. Təsadüfi deyil ki, əlverişli coğrafi şəraiti, zəngin təbii ehtiyatları, strateji əhəmiyyətli liman şəhəri olan Bakı çar Rusiyasının da Cənubi Qafqazda möhkəmlənmək planlarında xüsusi yer tuturdu. Bu münasibətlə general P.D.Sisianov 15 yanvar

ute to Yelizaveta - the spouse of Alexander I. The khanate's territory had been transformed into the Yelizavetpol Governorate – administrative unit of the Russian Empire.

Another independent state established in Azerbaijan at the first half of XVIII century was Baku khanate with a capital based in Baku. From the ancient times, Baku had maintained economic, cultural and trade relations with a number of states of the Middle East, Asia and other regions. Surrounded by a strong fortress, Baku used to be one of the most unassailable strongholds of Medieval Azerbaijan. Defence of the city walls and maintenance of order in the town itself used to be a responsibility of Galabeyi–city governor assigned by the Khan and having a special troop under his command. Residents of Baku used to pay special tax to maintain the town's security.

Famous as a seaport town with strategic geographic location and rich natural resources, Baku took

1803-cü il tarixli göstərişində yazırdı: “Biz bilirik ki, Bakı limanı rus ticarət dəniz gəmiçiliyi üçün nə qədər gərəklidir; bizim nəzərlərimiz ona bir şəhər olmaqdan çox məhz buna görə yönəlmişdir. Bakı şəhəri limanı ilə birlikdə təbii mövqeyinə görə münasib imkan düşən kimi bizim qoşunlarımız tərəfindən tutulmalıdır.”

General P.Sisianovun başçılığı ilə 1805-ci ildə Bakı xanlğına hücum edilir. İlk hücum uğurlu alınmasa da, ikinci hücum zamanı Bakı mühasirəyə alınır. Bakı xanı Hüseynqulu xan danışıqlar aparmaq üçün onunla Qala qapısının yanında görüşdüyü zaman general P.Sisianov xanın qardaşı oğlu tərəfindən öldürülür.

General P.D.Sisianovun ölümündən sonra rus qoşunlarının hücumları xüsusilə amansızlaşdı. 1806-cı il oktyabrın 3-də general Bulqakovun komandanlıq etdiyi rus qoşunları Dərbəndi ələ keçirdikdən sonra Bakıya hücum edir. Bakı xanı Hüseynqulu xan şəhəri və onun əhalisini qorumaq məqsədilə öz nümayəndə heyətini xanlığın bayrağı, qalanın açarları və düz-çörəklə Bulqakovun yanına göndərir. Beləliklə, Bakı işğal olunur. 1813-cü ildə isə Gülüstan müqaviləsi ilə Bakı xanlığının Rusiyaya birləşdirilməsi rəsmiləşdirilir.

special part in the Russia’s plans to solidify in the South Caucasus region. As was written by general P.D. Tsitsianov in his decree from January 15, 1803: “We fully understand how important the Baku port is for the Russia’s maritime shipping. Therefore, we must pay special attention to Baku being a marine port with very favourable natural conditions and strategic geographic location, and our armies must conquer it at as soon as the circumstances allow”.

In 1805, Tsitsianov had led the Russian army’s Baku invasion. While the first attack was successfully repelled, the troops managed to encircle the town as a result of the second assault. Pending this success, Huseyngulu khan and Tsitsianov met by the main city gates to conduct negotiations, and during that meeting Tsitsianov was assassinated by the khan’s cousin.

After death of their leader, Russians resumed their attempts to conquer the fortress and did it with special eagerness. On October 3, 1806, Russian troops led by general Bulgakov had conquered Darband and assaulted Baku. Then, in order to protect the city and its’ residents from a senseless bloodshed, Huseyngulu khan had sent Bulgakov a peace delegation. with bread and salt, the khanate’s flag and the keys of Baku. Occupation of Baku was finalized in 1813 by the Gulustan treaty, according to which the khanate’s territory was united with Russian empire.



*Quba qalasının açarı*
*Key of Guba fortress*

XVIII əsrin ortalarında Azərbaycanın şimal-qərbində yaranmış feodal dövlətlərdən biri də Quba xanlığı idi. 1759-cu ildə Dərbənd xanlığı da Quba xanlığının tərkibinə daxil edilmişdir. Qərbdə Şəki xanlığı, cənubda Bakı və Şamaxı xanlıqları ilə həmsərhəd olmuş Quba xanlğının mərkəzi əvvəlcə Xudat, 1735-ci ildən Quba şəhəri idi. Quba şərq üsulu ilə tikilmiş divar və qalalarla möhkəmləndirilmiş bir şəhər idi. Xanlıq iqtisadi inkişaf səviyyəsinə görə digər Azərbaycan xanlıqlarından fərqlənirdi. Bunun əsas səbəbi xanlığın əlverişli coğrafi-iqtisadi mövqedə yerləşməsi, habelə Nadir xanın yürüşləri zamanı Quba torpaqlarının nisbətən az ziyan çəkməsi idi.

Xanlıq Azərbaycanı Dağıstan, Şimali Qafqaz və Cənubi Rusiya ilə birləşdirən mühüm ticarət yolunun üzərində yerləşirdi. XVIII əsrin əvvəllərində Salyan ərazisi də Quba xanlığından asılı vəziyyətdə idi. Bu dövrdə Quba xanlığı iqtisadi, hərbi-siyasi baxımdan Azərbaycanın bir çox xanlıqlarından üstün idi və ölkənin siyasi həyatında mühüm rol

Guba khanate had been established in the early XVIII century in the northeastern part of Azerbaijan. Since 1759, its' jurisdiction covered the territory of Darband khanate, too. Having common borders with Baku and Shamakhi khanates in the south, Guba khanate first had its' capital based in Khudat, and, since 1735, in Guba. Guba used to present a town enclosed in the oriental-style fortifications. If compared to the other Azerbaijan khanates, Guba khanate was distinguished for better economic welfare, which was conditioned by favourable geographic location and the fact that the area has not been much affected by the Nadir shah's military campaigns.

The khanate was situated on the important trade route connecting Azerbaijan with Dagestan, Northern Caucasus and Southern Russia. At the beginning of XVIII century even the territory of Salyan remained under the Guba khanate's vassalage. At that time Guba was one of the most powerful khanates



*Rus qoşunlarının Təbrizə daxil olması*
*Russian troop's entrance to Tabriz*

oynayırdı. 1806-cı ildə Quba xanlığı Rusiya tərəfindən ələ keçirildi. 1810-cu ildə isə əyalətə çevrildi.

XV-XVII əsrlərdə Təbriz Yaxın Şərqin mühüm sənətkarlıq, ticarət və mədəniyyət mərkəzlərindən idi. Mənbələrdə həmin dövrdə Təbrizdə 300 mindən artıq əhalinin yaşadığı haqqında məlumatlar vardır. 1827-ci il oktyabr ayında Rusiya-İran müharibəsi zamanı Rusiya qoşunu Təbrizi tutdu. 1828-ci ildə imzalanmış Türkmənçay sülh müqaviləsinə əsasən Təbriz İranın hakimiyyətində qaldı.

XVIII əsrin 40-cı illəri-XIX əsrin əvvəllərində Cənubi Azərbaycan ərazisində mərkəzi Ərdəbil şəhəri olmaqla Ərdəbil xanlığı mövcud olmuşdur. Ərazisi Talış, Qaradağ, Təbriz, Marağa və Gilan xanlıqları ilə hüdudlanırdı. Xanlığı feodal əyanlardan ibarət

of Azerbaijan, and played an important role in the country's political life. In 1806, the khanate had been invaded by Russia, and in 1810 it was turned into the Guba Uyezd.

In XV-XVII centuries, Tabriz used to be one of the most prominent arts, trade and cultural centers of the entire Middle East region. According to sources, the city used to have a population of over 300 thsd people. Russians invaded the city in 1827 during Russian-Persian war, butm according to 1828 Turkmenchay treaty, it had remained under Persia's jurisdiction.

Between 1740's and early 19th century, there was the Ardebil khanate established in the territory of Southern Azerbaijan. Having common borders with Talysh, Garadagh, Tabriz, Maragha and Gilan khanates, the



*Təbriz və Abasabad qalalarının açarları*
*Keys of Tabriz and Abasabad fortresses*



*Ərdəbil şəhərinin açarı*
*Key of Ardabil town*

divanxana idarə edirdi. Onun üç min nəfərlik daimi qoşunu var idi.

XVIII əsrin ortalarına yaxın Azərbaycan ərazisində qədim yurd yeri olan Şuşa yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. Qarabağ hakimi Pənahəli xan ərazini düşmənlərdən qorumaq məqsədilə xanlığın ən strateji mövqelərində müdafiə qurğularının tikintisinə

state used to be managed by a divankhana (council) of feuds.

In the middle of XVIII century, new development period had started in Shusha - one of the ancient places of Azerbaijan. In order to protect the state from the enemies, Panahali khan – the ruler of Garabagh khanate had launched the construction of defensive fortifica-

 

*Şuşa qalasının açarları*
*Keys of Shusha fortress*

başladı. 1748-ci ildə Bayat qalası, 1752-ci ildə isə Şahbulaq qalası inşa edilmişdir. Lakin, Pənahəli xan müharibələr dövründə əhalinin sığınması üçün daha etibarlı, üç tərəfi sıldırım qayalarla əhatə olunmuş əlçatmaz dağ yaylasında yeni bir qala ucaltmağı qərara aldı. Yeni qala ilk illərdə öz banisinin adı ilə "Pənahabad", sonralar isə "Şuşa" adlandırılmağa başlandı.

Mirzə Camal Cavanşir Qarabaği Pənahəli xanın Qarabağ torpağını qorumaq məqsədilə Şuşa qalasını ucaltması barədə yazarkən həmin şəhər qalıqlarını da xatırladır: "Xanın bir neçə nəfər bilici və məlumatlı adamı gedib, qalanın yerini və ətrafını yoxladılar. Qalanın içində iki-üç bulaqdan başqa axar su yox idi. Bu bulaqların suyu isə qala camaatına kifayət etmirdi. Ona görə, quyu qazdırıb, müəyyən elədilər ki, buranın bir

tions in the region's most strategic locations, including Bayat castle in 1748 and Shahbulag castle in 1752. Then, in order to offer better protection to his people, he decided to erect a brand-new fortress located on hardly accessible mountainous plateau surrounded by steep cliffs on three of its' sides. First named after its' founder, the fortress was later renamed to Shusha.

Narrating about construction process of Shusha, Mirza Jamal Javanshir Garabaghli wrote about the fortress remains: "Several knowledgeable and skilful people from the Khan's suite had visited and studied the location proposed for building a fortress. They found that the area has only 2-3 sources of spring water which would be hardly enough to feed the fortress residents. Searching for possible solution, they had developed sev-

çox yerində su quyuları qazmaq mümkündür. Bu xəbəri mərhum Pənah xana çatdırdılar. Xan sevinərək, bir neçə öz yaxın adamı ilə buraya gəldi, yerlə tanış olub, əzmlə qalanın təməlini qoydu". Tədricən qalanın ətrafında yaşayış məhəllələri salınmış və Şuşa 1756-ci ildən 1823-ci ilədək Qarabağ xanlığının paytaxtı olmuşdur.

Rusiyanın işğalçılıq planlarına Qarabağ xanlığı da daxil idi. 1805-ci ildə imzalanmış Kürəkçay müqaviləsinə görə Qarabağ xanlığı Rusiya İmperiyasının təəbəliyini qəbul etmişdi. 1806-cı ildə İbrahimxəlil xan öz ailəsi ilə birlikdə çar ordusu mayoru Lisaneviçin dəstəsi tərəfindən qətlə yetirildi. 1813-cü il oktyabrın 12-də imzalanmış Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığının Rusiya himayəsinə keçməsi rəsmən qəbul edildi.

eral wells and realized that there are many places in the area that are suitable for well sinking. Having learnt about this conclusion, Panahali khan rejoiced, visited the selected location and triumphally laid the Shusha's foundation". After the construction was over, new residential blocks emerged around the fortifications, and Shusha was turned into the khanate's capital, remaining as this from 1756 till 1823.

Garabagh khanate was on an invasion agenda of the Russian Empire, too. According to Kurakchay treaty of 1805, the Khanate had become the empire's vassal. In 1806, Ibrahimkhalil khan was assassinated together with his family by a group of the Russian soldiers led by major Lisanevich. According to Gulustan treaty of 1813, the territory of Garabagh khanate had been officially integrated into the Russian empire.